İPƏK YOLU, No.2, 2025, səh.132-139
https://doi.org/10.30546/SI.2025.2.5.248

# APOKALİPSİS VƏ EKOLOJİ XƏBƏRDARLIQ: MÜASİR ƏDƏBİYYATDA QLOBAL FƏLAKƏTLƏRİN TƏZAHÜRÜ

**Nərmin Kərimova**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: narminbabazadeh@mail.ru

**Xülasə.** Məqalədə apokalipsis mövzusunun ədəbiyyatda yer alması, onun ekoloji böhran və insan qorxuları ilə əlaqəsi araşdırılır. Castin Kroninin “Keçid” və Anarın “Ağ qoç, qara qoç” əsərləri vasitəsilə ekoloji tarazlığın pozulması, insan fəaliyyətindən qaynaqlanan səhvlər və cəmiyyətin süqutu kimi məsələlər təhlil edilir. Bu əsərlər vasitəsilə oxucular bəşəriyyətin gələcəyi və potensial nəticələr üzərində düşünməyə sövq edilir.

**Açar sözlər:** Apokalipsis, ekoloji böhran, cəmiyyətin süqutu, Castin Kronin, Anar.

**APOCALYPSE AND ECOLOGICAL WARNING: MANIFESTATIONS OF GLOBAL CATASTROPHES IN CONTEMPORARY LITERATURE**

**Narmin Karimova**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The article explores the representation of the apocalypse in literature and its connection to ecological crises and human fears. Through an analysis of Justin Cronin’s “The Passage” and Anar’s “White Ram, Black Ram”, the study examines issues such as the disruption of ecological balance, human-induced errors and the collapse of societies. These works encourage readers to reflect on humanity's future and the potential consequences of current actions.
**Keywords:** Apocalypse, ecological crisis, collapse of society, Justin Cronin, Anar.

**АПОКАЛИПСИС И ЭКОЛОГИЧЕСКОЕ ПРЕДУПРЕЖДЕНИЕ: ПРОЯВЛЕНИЯ ГЛОБАЛЬНЫХ КАТАСТРОФ В СОВРЕМЕННОЙ ЛИТЕРАТУРЕ**

**Нармин Каримова**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** В статье исследуется отражение темы апокалипсиса в литературе и ее связь с экологическими кризисами и человеческими страхами. На примере анализа произведений Джастина Кронина “Перерождение” и Анара “Белый баран, черный баран” рассматриваются такие вопросы, как нарушение экологического баланса, ошибки, вызванные человеческой деятельностью, и распад обществ. Эти произведения побуждают читателей задуматься о будущем человечества и возможных последствиях современных действий.
**Ключевые слова:** Апокалипсис, экологический кризис, коллапс общества, Джастин Кронин, Анар.

## 1. Giriş

Apokaliptik motivlərin ədəbiyyatda yer alması insanlıq tarixində uzun müddətdir mövcud olan “ümumi qiyamət hissi” ilə sıx bağlıdır. Bəzi tədqiqatçılar bu mövzunun tarixin müxtəlif dövrlərində fərqli formalarda təzahür etdiyini, lakin müasir dövrdə bunun ekoloji problemlər kontekstində daha da aktuallaşdığını irəli sürürlər. Ceff Luis *(Jeff Lewis)* “Qlobal media apokalipsisi: Zövq, zorakılıq və qiyamətin mədəni təsəvvürləri” *(Global Media Apocalypse: Pleasure, Violence and the Cultural Imaginings of Doom, 2012)* adlı kitabında apokalipsis motivlərini bəşəriyyətin taleyi ilə bağlı dərin qorxuların mədəni və sosial ifadəsi

kimi təqdim edir. Entoni Giddens *(Anthony Giddens)* isə "İqlim dəyişikliyi siyasəti" *(Politics of Climate Change, 2009)* kitabında apokaliptik narahatlıqların müasir cəmiyyətdə dini anlayışlardan uzaqlaşaraq daha çox sosial və iqtisadi risklərlə əlaqələndirildiyini vurğulayır. Tədqiqatçının fikrincə, *"qiyamət artıq mənəvi bir hesablaşma deyil, elmi və iqtisadi göstəricilərə əsaslanan real ehtimaldır"* [3, s.228].

Apokaliptik təsvirlərin ekoloji problemlərlə əlaqəsi ədəbiyyatın bəşəriyyətin üzləşdiyi qlobal məsələləri tədqiq etməsi və insan təxəyyülünü hərəkətə gətirərək bu problemlərə diqqət çəkməsindən qaynaqlanır. Bu istiqamətdə Cozef Mikerin *(Joseph Meeker)* "Sağqalma komediyası: ədəbi ekologiya araşdırmaları" *(The Comedy of Survival: Studies in Literary Ecology, 1974)* adlı əsəri erkən nümunələrdən biri hesab edilir. Uilyam Rukert *(William Rueckert)* isə "Ədəbiyyat və ekologiya" *(Literature and Ecology, 1978)* məqaləsində ədəbiyyatla ekosistemin qarşılıqlı əlaqəsini dərindən araşdıraraq *"ədəbi əsərlərin "depolanmış enerji" kimi insanlara təsir etdiyini"* [4] qeyd edir. Bu yanaşma ədəbiyyatın yalnız estetik bir vasitə olmaqla kifayətlənməyib, həm də ekoloji problemlərə həssas yanaşmanın təşviqində mühüm rol oynadığını göstərir. Apokaliptik mövzular bu baxımdan yalnız gələcək fəlakətlərin təsviri ilə kifayətlənmir, oxucuları bu fəlakətlərin qarşısının alınması üçün fərdi və kollektiv səviyyədə mümkün həll yollarını düşünməyə sövq edir.

Amerika ədəbiyyatında Castin Kroninin *(Justin Cronin)* "Keçid" *(The Passage, 2010),* Azərbaycan ədəbiyyatında isə Anarın "Ağ qoç, qara qoç" (2003) əsərləri apokalipsisin insan ruhuna təsirini, təbiət və texnologiya arasındakı tarazlığın pozulmasının fəsadlarını əks etdirmək baxımından əhəmiyyətlidir. Hər iki müəllifin əsərlərindəki apokaliptik səhnələr bəşəriyyətin öz əməllərinin nəticələri ilə üzləşməsi və bu nəticələrdən dərs çıxarması üçün xəbərdarlıq kimi qəbul edilə bilər. Bu əsərlər həmçinin insanın daxili mübarizəsini və ümidsizlik qarşısında göstərdiyi iradəni ustalıqla təqdim edir.

## 2. Castin Kroninin "Keçid" romanında texnoloji inkişafın apokaliptik fəsadları

Çağdaş Amerika ədəbiyyatında özünəməxsus yer tutmuş yazıçılar sırasında Castin Kroninin adını xüsusilə qeyd etmək lazımdır. Xüsusən, "Keçid" trilogiyası ilə beynəlxalq miqyasda tanınan müəllif ilk əsərlərində şəxsi mövzulara diqqət yetirmiş, sonrakı dövrlərdə isə daha mürəkkəb süjetə malik əsərlər yazmağa meyl göstərmişdir. C. Kronin yaradıcılığında insan təbiətinin emosional və psixoloji dərinliklərini təsvir etməyə üstünlük verir.

"Keçid", "On iki" *(The Twelve, 2012)* və "Güzgülər şəhəri" *(The City of Mirrors, 2016)* adlı romanlardan təşkil olunmuş trilogiyanın birinci kitabı elmi fantastika janrında yazılmışdır ki, burada insanlığın sonu ilə bağlı dərin mövzulara toxunularaq apokaliptik və postapokaliptik dövr təsvir edilir.

Müəllif əsərin adını "həyatdan ölümə və bilinməzliyə keçid" kimi mənalandırır: *"Keçid bir haldan və ya vəziyyətdən digərinə keçməkdir. Romanın özündə də dünya belə bir keçid yaşayır. Əsərin adı ruhun həyatdan ölümə və o bilinməz sahəyə keçidinə bir istinaddır"* [5].

Roman ABŞ hökumətinin məxfi bioloji tədqiqatı olan "Nuh layihəsi"ndən bəhs edir. Bu layihə ilə insan ömrünü uzatmaq və xəstəlikləri müalicə etmək niyyətində olan tədqiqatçılar

xüsusi bir virusdan istifadə edirlər. Lakin virusun gözlənilməz nəticələrinin ortaya çıxması ilə insanların zombiləşməsi prosesi başlayır və yaranan bu vəziyyət bütün bəşəriyyət üçün böyük təhlükəyə çevrilir.

Məhbuslar üzərində aparılan və nəzarətdən çıxan təcrübələr nəticəsində pandemiya yaranır. Dünyanın böyük bir hissəsinin zombi sürülərinin əlinə keçməsi cəmiyyətin dağılmasına, xaosun yaranmasına şərait yaradır. Uzun müddət davam edən pandemiyada sağ qalmış bir qrup insan zombilərdən qorunmaq məqsədilə yüksək divarlarla əhatələnmiş koloniyalarda məskunlaşır.

Bəşəriyyətin xilasının simvolu olan Emi Harper Bellafont *(Amy Harper Bellafonte)* adlı bir qız əsərin baş qəhrəmanı kimi təqdim olunur. Emi virusdan təsirlənmiş olmasına baxmayaraq, zombiyə çevrilmir, hətta uzunömürlülüyə və qeyri-adi güclərə sahib olur. Təcrübə proqramından agent Bred Volqast *(Brad Wolgast)* tərəfindən xilas edilən qəhrəman onunla yaxın bir bağ qurur ki, bu münasibət Eminin insanlığa olan inamını gücləndirir.

C. Kronin əsərdə apokaliptik vəziyyətin səbəbi kimi insanın ehtiyatsız texnoloji və elmi təcrübələrini göstərir. “Nuh layihəsi” çərçivəsində təbiətin şəxsi və texnoloji mənfəətlər üçün istismar edilməsinin qlobal fəlakətlərə yol aça biləcəyi vurğulanır. Yazıçı, həmçinin təbiət təsvirləri vasitəsilə bu mövzunu dərinləşdirir. Məsələn, meşə ilə əhatələnmiş düzənliyin, çay boyunca uzanan əhəngdaşı qayalıqlarının təsviri təkcə təbiətin estetik mənzərəsini yaratmır, həm də geoloji təhlil üçün zəmin yaradır. Müəllifin diqqət çəkdiyi kömür xətti geoloji tarixdə baş vermiş böyük bir fəlakətin izlərini daşıyır ki, uydurma mifologiya - Çuçote əfsanəsi ilə təhkiyəsini zənginləşdirən yazıçı unikal bir atmosfer yaradır.

Əfsanədə Günəş tanrısı Oksl tərəfindən iblisləri məhv etmək və dünyanı xilas etmək üçün göndərilmiş böyük bir yanğından bəhs olunur. Bu motiv bir tərəfdən apokaliptik təmizlənmə və yenidən doğuluş ideyasını vurğulayır, digər tərəfdən isə insanla təbiət arasındakı tarixi və mənəvi gərginliyi simvolizə edir. Bəşəriyyətin kollektiv günahlarına görə cəzalandırılması motivini əks etdirən əfsanədə tanrının qəzəbi yalnız iblislərə yönəlsə də, nəticə etibarilə, hər şey məhv edilir. Apokaliptik ədəbiyyatda günahkarların yer üzündən təmizlənməsi, günahsızların, eyni zamanda təbiətin də fəlakətdən zərər görməsi tez-tez rast gəlinən haldır. Günəş tanrısının qəzəbi nəticəsində baş verən yanğın yalnız iblisləri məhv etməklə kifayətlənmir, eyni zamanda təbiətdə dərin izlər buraxaraq onun ekosistemini də alt-üst edir. Bu baxımdan, C. Kroninin təqdim etdiyi geoloji mənzərə həm apokaliptik məhvə, həm də ekoloji xəbərdarlığa işarə edir.

Məlumdur ki, yanğınlar iqlim dəyişikliyinin birbaşa nəticəsi ola bilər. Yazıçı əsərdə bu cür problemə toxunaraq fəlakətlə insan mübarizəsini üz-üzə qoyur: *“We smelled the fires last night and by morning we knew the forest was burning over the ridgeline to the east... We’ve decided to press on and if the air gets worse we’ll have to make a decision. A mistake. The fires are close now, no way to outrun them. We have taken shelter in a garage off the highway... We used the tarps and some nails and a hammer we found to cover the broken windows in the front*

*and now all we can do is wait and hope the wind shifts"* [2, s.630]. - *"Dünən gecə yanıq iyi hiss etdik və səhər şərqdəki dağların arxasındakı meşənin yandığını anladıq... Davam etmək qərarına gəldik, əgər tüstü artsa, qərar verməli olacağıq. Səhv etdik. İndi alov çox yaxındadır, qaçmaq mümkün deyil. Magistral yolun kənarındakı qaraja sığındıq... Tapdığımız brezentlərdən, mismarlardan və çəkicdən istifadə edərək ön tərəfdəki sınmış pəncərələri bağladıq və indi edə biləcəyimiz tək şey gözləmək və küləyin istiqamətini dəyişməsini ümid etməkdir".* İnsan fəaliyyəti nəticəsində ekosistemin pozulması fəlakətlərin daha sıx və dağıdıcı olmasına səbəb olur. Əsərdə yanğını təbiətin qisası kimi də şərh etmək olar, çünki insanın təbiəti idarə etmək və ona zərər vurmaq cəhdləri özünə qarşı çevrilir. Obrazların səhv etmələrini anlamaları insanın böhran anında qərar qəbul etməsinin nə qədər kritik olduğunu göstərir. Onların küləyin istiqamətini dəyişməsini ümid etmələri insanın təbiət qarşısında gücsüzlüyünü və xilas olmaq üçün ümidə sığınma məcburiyyətini əks etdirir. Görünür ki, insanın mübarizə üçün yalnız mövcud şərtlərə uyğunlaşmaqdan başqa alternativi yoxdur.

Hər yerdə heyvan cəmdəklərinin olduğunu və havadan kömürləşmiş ət iyinin gəldiyini hiss edən qəhrəmanlar gecələr eşitdikləri səslərin yanmış zombilərin qışqırtıları olduğunu zənn edirlər. Onlar eşitdikləri səsləri rasional olaraq izah etmək əvəzinə zombilərlə əlaqələndirirlər. Bununla yazıçı apokaliptik mühitin insan zehninə necə təsir etdiyini və qorxunun şiddətini göstərməyə çalışır. Əsərdə zombiləri bəşəriyyətin özünün səbəbkarı olduğu fəlakətlərin dirilmiş qurbanları kimi düşünmək mümkündür.

Səhnələrdən birində Volqast həyətdə işləyərkən havada tüstü qoxusunun yayıldığını hiss edir və vəziyyəti müşahidə etmək məqsədilə dama baxmağa çalışır. Ancaq ağaclar, göl və dağlardan başqa heç nə görməyə nail olmayan qəhrəman yanğının nə qədər uzaqlıqda olduğunu anlaya bilmir. Bundan əlavə, o başa düşür ki, külək tüstünü yüzlərlə kilometr uzağa apara bilər. Yanğının yalnız tüstü vasitəsilə hiss edilməsi insanın təbii fəlakətlər qarşısındakı məhdudiyyətinə və qeyri-müəyyənliyə məruz qalmasına işarədir. Təhlükənin görünməməsi, lakin hiss edilməsi əsərdəki gərginliyi daha da artırır. Küləyin tüstünü uzaqlara aparması təbiətin nəzarətə alınmayan gücünü, insanın bu güc qarşısında zəifliyini xarakterizə edir. Bu səhnə ilə Castin Kronin insanın lokal problemləri necə qlobal təsirlərə çevirə biləcəyinə dair mesaj verir.

Oxucu romanda insanın texnoloji və elmi inkişafın təhlükəli nəticələrə səbəb olduğu distopik mühitlə qarşılaşır: *"Above the desk was a big sign: AUTHORIZED PERSONNEL ONLY. BIOLOGICAL AND NUCLEAR HAZARDS PRESENT. NO EATING, DRINKING, SMOKING. REPORT ANY OF THE FOLLOWING SYMPTOMS TO THE OD. This was followed by a list of what sounded like a bad case of stomach flu, only worse: fever, vomiting, disorientation, seizures"* [2, s.168]. - *"Stolun üstündə böyük bir nişan var idi: YALNIZ RƏSMİ HEYƏT. BİOLOJİ VƏ NÜVƏ TƏHLÜKƏSİ MÖVCUDDUR. YEMƏK, İÇMƏK, SİQARET ÇƏKMƏK QADAĞANDIR. AŞAĞIDAKI ƏLAMƏTLƏRDƏN HƏR HANSI BİRİ VARSA, NÖVBƏTÇİYƏ BİLDİRİN. Ardınca mədə soyuqlamasının əlamətlərinə bənzəyən, amma daha pis simptomların siyahısı yazılmışdı: qızdırma, qusma, orientasiya pozğunluğu, qıcolmalar".* Burada bəşəriyyətin öz yaratdığı bioloji və nüvə təhlükələri ilə üz-üzə qalması və bu fəlakətlərin

gündəlik həyata necə təsir göstərməsi məsələsi ortaya çıxır. Elmi inkişafın insan üçün potensial təhlükə mənbəyinə çevrilə biləcəyi açıq şəkildə müşahidə olunur. Bioloji və nüvə təhlükəsinin mövcudluğu texnologiyadan yanlış istifadənin fəsadlarını simvolizə edir. Bununla yanaşı, distopik rejimlərin idarəetmə üsullarına da rast gəlinir ki, yalnız məhdud sayda şəxslərin giriş-çıxışına icazə verilməsi bunun bariz nümunəsidir. Xəstəlik əlamətlərin təsviri fəlakətin fiziki təsirlərinin şiddətini göstərir. Eyni zamanda, müəllifin apokaliptik atmosfer yaratmaqla insan sağlamlığının hər detalına diqqət yetirdiyini və qəhrəmanların həyatlarının ciddi təhlükə altında olduğunu vurğuladığını demək mümkündür.

Qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, Castin Kronin apokalipsis mövzusuna müraciət etməklə oxucuları bəşəriyyətin gələcəyi barədə düşünməyə, suallar verməyə və cavablar axtarmağa təşviq edir.

## 3. Anarın “Ağ qoç, qara qoç” əsərində ekoloji tarazlıq və cəmiyyətin süqutu problemi

Müasir Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Anarın “Ağ qoç, qara qoç” əsəri öz fəlsəfi və simvolik məzmunu ilə seçilir. Anar əsərdə insan taleyi, həyatdakı seçimlər və xeyir ilə şərin əbədi mübarizəsini təsvir edir.

Yazıçı əsərinə xeyir və şər arasındakı mübarizəni təsvir etməklə başlayır. Bu dilemma “Məlikməmmədin nağılı”na istinad edərək vurğulanır. Ağ qoçun Məlikməmmədi işıqlı dünyaya çıxarması insan düşüncələrinin inamlı və məqsədyönlü olduğu təqdirdə yeni bir dünya yarada biləcəyini simvolizə edir.

Əsər iki hissədən ibarətdir ki, birinci hekayədə utopik cəmiyyətdə yaşayan, telerejissor, eyni zamanda jurnalist olan əsərin qəhrəmanı Məlik Məmmədlinin düşüncələri əks olunur. Məlum olur ki, Məlik Məmmədlinin həyat yoldaşı Aypəri teatr rəssamı kimi Təbrizdə çalışır, oğlu Beyrək Şuşada mühəndis kimi fəaliyyət göstərir, qızı Burla isə Kərkükdə ədəbiyyat müəllimi işləyir.

Birinci hekayədən fərqli olaraq, ikinci hekayədə sanki apokalipsis yaşanır, hər şey alt-üst olmuş şəkildə təqdim olunur. Anar yenidən “Məlikməmmədin nağılı”na müraciət edərək qara qoçun Məlikməmmədi qaranlıq dünyaya aparmasına diqqəti yönəldir ki, oxucu bu dəfə hadisələrin antiutopik cəmiyyətdə cərəyan edəcəyindən xəbərdar olur.

Məlik həyat yoldaşının Aypəri adından imtina edib Mahrux olduğunu, mədrəsədə dərs keçdiyini öyrənir. Aypəri onunla bir daha görüşmək istəmədiyini, onu ölmüş hesab etməsini bildirir. Oğlunun axtarışına çıxan qəhrəman Bakı Kommunasına gəlib çıxır, lakin qarşılaşdığı mənzərə qarşısında məyus olur. Beyrək artıq soyuqqanlı Borisə çevrilmişdir. Məşhur rəqqasə qızı Buranın yanına gəldikdən sonra şahid olduğu hadisələrə isə Məlik Məmmədli tab gətirə bilmir.

Anar əsərdə ekoloji tarazlığın pozulmasının nəticələrini göstərərək bəşəriyyətin öz əməlləri ilə fəlakətə sürükləndiyini qeyd edir. Yazıçı əsərdə qəhrəmanın qaranlıq dünyadakı səyahəti zamanı bir sıra tanınmış binaların yanaraq məhv olmasını təsvir edir və bu məhv

prosesini yalnız maddi strukturların yox olması kimi deyil, həm də xalqın tarixi irsinin yanıb külə çevrilməsi kimi təqdim edir.

Evlərdə qazın olmaması, odun məqsədilə bütün ağacların qırılıb qurtarması, insanların Yanardağa gedərək yerdən çıxan odun üstündə yemək bişirmələri təbii resursların tükənməsinin açıq göstəricisidir. Təbiətə laqeyd yanaşan cəmiyyət öz yaşayış şərtlərini çətinləşdirir ki, bu cür davranış ekosistemin pozulmasına, təbiətlə insan arasında balansın itirilməsinə gətirib çıxarır.

*“ - Kim partlatmışdı Mingəçevir bəndini? Daxildə çəkişən qüvvələr, kompüterin səhvi nəticəsində raketlərin yolundan sapması, separatçı ya xarici qüvvələr? Açılmamış və heç bir vaxt açılmayacaq sirr... Məlik bilirdi: Ermənistan atom stansiyasının partlayışı kimi Mingəçevir bəndinin dağılması da tək XXI əsrin deyil, bəlkə də bütün əsrlərin ən böyük fəlakəti, ən nəhəng ekoloji və humanitar musibəti idi. Azərbaycanın bütün aran rayonları su altında qalmışdı. Əhalinin bir hissəsi dağlara qaçmışdı”* [1, s.389]. Ata və oğulun söhbətindən çıxış edərək demək mümkündür ki, yazıçı apokaliptik ədəbiyyatın əsas motivlərindən olan fəlakət qarşısında insanların acizliyini qeyd edir. Strateji əhəmiyyətə malik bəndin kim tərəfindən partladılması sualı Azərbaycan cəmiyyətindəki çəkişmələri, həmçinin xarici müdaxilələri metaforik şəkildə təsvir edir. Bununla yanaşı, müəllif insanın bu cür böyük fəlakətləri izah etməkdə çətinlik çəkdiyinə işarə edir. Texnologiya və siyasi gücün inkişaf etməsinə baxmayaraq, fəlakətdən qaçmaq mümkün deyil. Mingəçevir bəndinin dağıdılması təkcə ölkə üçün deyil, bütün bəşəriyyət üçün ciddi xəbərdarlıq ola bilər.

Məlik rəqqasə qızının evinə daxil olarkən pəncərədə könül oxşayan dəniz mənzərəsi ilə qarşılaşsa da, sonradan mənzərənin şəkildən başqa bir şey olmadığını anlayır. Otağın pəncərəsinin olub-olmadığı sualına isə *“ - Pəncərə nə lazımdır - dedi - bu murdar şəhərə baxmağa? Belədə hara baxıram ürəyim açılır”* [1, s.395] cavabı alması qlobal tənəzzülün göstəricisidir. Şəhərə baxarkən mənzərənin ürək bulandırması insanların öz yaratdıqları dünyadan uzaqlaşmaq istəyinə işarədir. Yəqin ki, Burla kimi digər insanlar da təbiətə yadlaşmış və bu yadlaşma onlarda mənəvi boşluq yaratmışdır. Oxucu Burlanın timsalında insanın təbiətlə ayrılmaz əlaqəsinin və harmoniyaya can atmasının şahidi olur.

Məlik Məmmədlinin qızı ilə söhbətindən apokaliptik vəziyyətin necə yarandığı aşkara çıxır. Burla əvvəl atışma başladığını, qısa müddət ərzində şəhərin hər tərəfində barrikadalar qurulduğunu, daha sonra dağıntıların, yanğınların baş verdiyini, telefon əlaqəsinin tamamilə kəsildiyini atasına nəql edir. Bütün bunlar insanların sosial əlaqələrini itirdiyini, fərdin apokaliptik dünyada tək mübarizə aparmaq məcburiyyətini nümayiş etdirir.

Üfunətli Xəzərin sahilinə gəlib çatan baş qəhrəmanın ümidsizliyə qapılması fonunda insanın həm öz fərdi mənliyindən, həm də kollektiv kimliyindən uzaqlaşması aydın şəkildə görünür. Məhv olan hər bir dəyər eyni zamanda mədəni, sosial və mənəvi irsin tədricən itirilməsi anlamına gəlir. Məliyin gələcəyə olan inamının tamamilə sarsılması isə yazıçının apokaliptik reallıqda insanın yalnız mövcud anın ağır yükünü daşımağa məhkum olduğunu göstərmək cəhdidir. Bununla yanaşı, müəllif ətraf mühitə laqeyd yanaşmanın və sosial qaydaların pozulmasının gələcəkdə qaçılmaz fəlakətlərə yol aça biləcəyinə dair xəbərdarlıq edir: *“Hər şey bitmişdi. Nə yeri-yurdu qalmışdı, nə xalqı, nə vətəni, nə ailəsi... Keçmiş yoxdu.*

*Darmadağın dağıdılmış, yandırılmış, tar-mar edilmişdi... Gələcək? Gələcək də yoxdu"* [1, s.411].

Məlik həyatın çətinlikləri, itirilmiş dəyərlər və mənəvi tənəzzül qarşısında daxili mübarizəsini itirməyə başladığı anda sahildə, qum üzərində dalaşan ağ və qara qoçu görür. Ağ qoç ümidin və mənəvi ucalığın simvolu kimi çıxış edir. Məlik qoçlara doğru irəlilədikcə yalnız ağ qoçun qaldığını müşahidə edir, lakin ona çatmaqda çətinlik çəkir. Onun ağ qoça çatmaq üçün göstərdiyi səy insanın ideallarına və mənəvi hədəflərinə yetişmək üçün göstərdiyi əzmi təcəssüm etdirir. Qəhrəman irəlilədikcə quma batır, dəfələrlə yıxılır, lakin çətinliklərə baxmayaraq yoluna davam edir. Bu vəziyyəti insanın həyatda qarşılaşdığı maneələrin simvolu kimi dəyərləndirmək olar. Məlik büdrəyib yıxılsa da, yenidən qalxaraq irəliləməyə davam edir ki, bu da insanın inadkarlığını və mübarizə ruhunu əks etdirir.

Məlik var gücü ilə ümidə doğru addımlayır, mənəvi kamilliyə nail olmaq, həyatın anlamını tapmağa çalışır. Buna baxmayaraq, ağ qoç əlçatmaz bir hədəfə çevrilir ki, bununla da Anar məqsəd uğrunda göstərilən zəhmətin və mübarizənin əhəmiyyətini qabardır: *"Ona elə gəlirdi ki, məsafə get-gedə azalır. Bax indicə ağ qoça çatacaq. Az qala çatacaqdı... Az qala. Az qala..."* [1, s.414].

**Nəticə.** Apokalipsis mövzusunun ədəbiyyatda işlənməsi bəşəriyyətin üzləşdiyi böhranların ədəbi təsviri olmaqla yanaşı, həm də cəmiyyətlərin gələcək taleyi ilə bağlı narahatlıqları ifadə edir. Bu mövzu, xüsusilə, müasir dövrdə ekoloji böhranlar, texnoloji inkişafın riskləri və sosial problemlərlə əlaqələndirilərək daha da aktuallaşır. Amerika yazıçısı Castin Kroninin "Keçid" və Azərbaycan yazıçısı Anarın "Ağ qoç, qara qoç" əsərləri bu kontekstdə diqqətəlayiq nümunələrdir.

"Keçid" əsəri vasitəsilə texnoloji və elmi təcrübələrin insanın nəzarətindən çıxması nəticəsində yaranan apokaliptik reallıq təsvir olunur. Müəllif texnologiyanın düzgün istiqamətdə istifadə edilməməsinin insanlıq üçün ciddi təhlükələr yarada biləcəyini göstərir. Bununla yanaşı, təbiətin insan tərəfindən istismarı nəticəsində yaranan fəlakətlərin yalnız ekosistemə deyil, insan mənəviyyatına da mənfi təsir etdiyi vurğulanır. Roman insanın kollektiv günahlarını və bu günahların doğurduğu nəticələri əks etdirərək bəşəriyyətin məsuliyyət hissini artırmağa çalışır.

Anarın "Ağ qoç, qara qoç" əsəri isə Azərbaycan ədəbiyyatında apokaliptik motivlərin fəlsəfi və simvolik ifadəsi kimi çıxış edir. Müəllif xeyir və şər mübarizəsini əsas götürərək insan həyatında seçimlərin əhəmiyyətini vurğulayır. Ekoloji tarazlığın pozulması, təbii resursların tükənməsi və cəmiyyətin mənəvi tənəzzülü kimi mövzular əsərdə öz əksini tapır. Əsərin apokaliptik fonunda insanın təbiətə yadlaşması, sosial əlaqələrin zəifləməsi və mənəvi boşluğun dərinləşməsi açıq şəkildə təsvir edilir.

Hər iki əsər oxucuları insan fəaliyyətinin fəsadları üzərində düşünməyə çağırır. Apokaliptik ədəbiyyatın məqsədi yalnız gələcəkdə baş verə biləcək fəlakətləri təsvir etmək deyil, həm də fərdləri və cəmiyyətləri bu fəlakətlərin qarşısını almaq üçün addımlar atmağa

təşviq etməkdir. Bu əsərlər bəşəriyyətin ümumi gələcəyinə olan məsuliyyət hissini artıraraq təbiət, texnologiya və insan arasındakı tarazlığın qorunmasının vacibliyini ön plana çəkir.

Beləliklə, apokaliptik ədəbiyyat həm estetik, həm də ictimai-əxlaqi dəyərlər baxımından böyük əhəmiyyət kəsb edir. Yazıçılar apokaliptik motivlər vasitəsilə insanlara yalnız keçmişin dərslərini xatırlatmaqla kifayətlənmir, eyni zamanda gələcəyin daha yaxşı qurulması üçün lazım olan əzmi və inamı oyadırlar.

## Ədəbiyyat


1. Anar (2004), Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyatı, 416.
2. Cronin J. (2010), The Passage. Ballantine Books, 784.
3. Giddens A. (2009), Politics of Climate Change. Polity, 256.
4. https://kulis.az/xeber/edebi-tenqid/colorredEkoloji-tnqid:color-dbiyyatin-tbit-qarsisinda-msuliyyti-colorredQismt-yazir...color-21901
5. https://www.bookmovement.com/bookDetailView/13503/The-Passage-Justin-Cronin
6. Lewis J. (2012), Global Media Apocalypse: Pleasure, Violence and the Cultural Imaginings of Doom. Palgrave Macmillan, 239.
7. Meeker J. (1974), The Comedy of Survival: Studies in Literary Ecology. University of Arizona Press, 217.
8. Taylor R. (2016), Interpreting Apocalyptic Literature. Kregel Academic, 206.